# Koronavirusuna ad verildi - COVID-19

## Yoluxanların da sayı artır, sağalanların da

**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Adhanom Çində meydana gələn yeni koronavirusa rəsmi ad verildiyini bəyan edib-COVID-19. Koronavirusun rəsmi adının mənası bu anlama gəlir: "CO" koronavirus, "VI" virus, "D" xəstəlik (disease), "19" isə virusun 2019-cu ildə aşkar olunduğunu bildirir.**

Direktor bildirib ki, "xəstəliyə ad verilməsi qeyri-dəqiq adların istifadəsinin və stiqmaların qarşısının alınması üçün vacibdir. Bu ad həmçinin bizə gələcəkdə bütün koronavirus epidemiyaları üçün vahid bir formadan istifadəyə imkan yaradacaq".

Bundan başqa Tedros Adhanom bildirib ki, Yeni koronavirusa qarşı ilk peyvənd nümunələri bir il yarım ərzində hazır ola bilər.

***Azərbaycanın Səhiyyə Nazirliyi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin mətbuat xidmətindən verilən məlumata görə, Çinin Uhan şəhərindən yanvarın 29-u çıxan 6 nəfərin karantin müddəti bitdiyindən və onların klinik vəziyyətlərində heç bir problem aşkarlanmadığından onlar artlıq evə buraxılıb.***

Xüsusi ayrılmış tibb müəssisəsində saxlanılan digər 6 nəfərin karantin müddəti isə sabah bitir, onların səhhətində də hər hansı bir problem aşkarlanmayıb. Karantin müddətinin sonunda qalan 6 nəfər də evə buraxılacaq.



Çində isə artıq koronavirusdan ölənlərin sayı 1113 nəfərə çatıb. Bu barədə Çinin Səhiyyə Məsələləri üzrə Dövlət Komitəsinin məlumatına deyilir.

Koronavirusa yoluxan şəxslərlə ünsiyyətdə olan 185 mindən artıq insan nəzarət altında saxlanılır.

Bununla yanaşı koronavirusdan sağalanların sayınada da artım qeydə alınır. Çində son 2 həftədə bu virusdan sağalanların sayı 10,6%-ə çatıb. Yanvarın 27-də bu göstərici 1,3% təşkil edirdi.

Yaponiyanın Yokohama limanında iki həftəlik karantində olan "Diamond Princess" kruiz laynerində 34 sərnişinin və gəminin bir heyət üzvünün koronavirusun yeni növünə yoluxduğu məlum olub. Bu barədə Yaponiyanın Səhiyyə, Əmək və Rifah naziri Kaçunobu Kato məlumat verib. Beləliklə, "Diamond Princess" laynerində koronavirusa yoluxanların ümumi sayı 175 nəfərə çatıb. Yeni yoluxan şəxslərin vətəndaşlıq mənsubiyyəti haqqında məlumat verilmir.

***Xatırladaq ki, Yaponiya hökumətinin qərarına əsasən, "Diamond Princess" kruiz layneri sərnişinlərdən birində yeni koronavirus aşkar edildikdən sonra Yokohama limanında saxlanılıb. Honkonqda gəmini tərk edən 80 yaşlı Honkonq sakinində koronavirisun yeni tipi aşkar edilib. Bundan sonra sərnişinlərdən bir neçəsində yüksək temperatur və öskürmə qeydə alınıb.***

Yaponiya hökumətinin qərarına əsasən, göyərtəsində 3700 nəfərin olduğu layner Yokohama limanında saxlanılıb və ona karantin tətbiq edilib. Koronavirusa yoluxanlar gəmidən çıxarılaraq xəstəxanaya yerləşdirilib. Gəmidə qalan sərnişinlər üçün karantin müddəti davam edir.

Hazırda Rusiyada da kiorona-viruslu xəstə qalmayıb. Rusiya KİV-lərinin yaydıqları məlumata görə, Çita infeksiya xəstəxanasında COVID-19 koronaviruslu Çin vətəndaşı sağalıb. Yanvarın 26-dan müalicə alan pasient artıq evə buraxılıb.

Qeyd edək ki, Tümen xəstəxanasında müalicə alan koronaviruslu çinli tələbə də fevralın 11-də xəstəxanadan buraxılmışdı. Beləliklə, Rusiya ərazisində koronaviruslu xəstə qalmayıb.

ABŞ-ın "American Airlines" aviaşirkəti isə Çinə uçuşları dayandırıb. Şirkət yaydığı açıqlamada bildirilir ki, Çində yaranan koronavirusun yeni növünə (COVID-2019) görə bu istiqamətdə bilet satışı azalıb və nəticədə Pekinlə Honkonqa nəzərdə tutulan bütün uçuşlar ləğv edilib.

Şirkətdən bildirilib ki, hazırda uçuşların bərpa edilməsi 24 aprel 2020-ci ilə planlaşdırılıb.

Qeyd edək ki, ABŞ-da koronaviruslu xəstələrin sayı 13 nəfər çatıb.

Almaniyanın Bavariya federal torpağında daha iki nəfər koronavirusun yeni növünə (COVID-2019) yoluxub. Bununla da ölkədə yeni növ koronavirus daşıyıcısı olan xəstələrin sayı 16 nəfərə çatıb.

Onların əksəriyyəti Bavariyadakı "Webasto" şirkətinin əməkdaşlarıdır. Koronavirusun yeni növünə yoluxanlardan ikisi Çinin Uhan şəhərindən təxliyə edilən Almaniya vətəndaşlarıdır.

Böyük Britaniyada koronavirusa yoluxanların sayı 4 nəfərə çatıb. Bu barədə İngiltərənin baş həkimi, professor Kris Uitti bildirib: "Daha bir xəstədə koronavirus aşkarlandı. Böyük Britaniyada yoluxanların ümumi sayı 4 nəfərdir. Son yoluxma Fransada yoluxmuş xəstədən keçib".

İspaniya Milli Mikrobioloji Mərkəzinin məlumatına görə, İspaniyada da daha bir nəfərdə koronavirusa yoluxma faktı aşkarlanıb. Bildirilib ki, Malyorka bölgəsində 4 nəfərdən analizlər götürülüb və onlardan birinin koronavirusa yoluxduğu aşkarlanıb.

Koronavirus 2003-cü ildən etibarən epidemioloji vəziyyətə görə neftin ən çox ucuzlaşmasına səbəb olan xəstəlik kimi qeydə alınıb. Bu göstərici üzrə koronavirus 2009-cu ildəki "donuz qripi"ni geridə qoyub.

***Koronavirusla bağlı vəziyyətin ən kəskin inkişafı dövründə neftin qiyməti 17% azalıb. Bu, 2009-cu ilin iyun ayında "donuz qripi" səbəbindən neftin qiymətlərinin azalmasından 2 faiz bəndi çoxdur.***

***Fevral ayının əvvəlində Çində sürətlə yayılan koronavirusa görə bu ölkədə neftə tələbat 20% azalıb, bu isə "Brent" markalı neftin qiymətini son bir ilin minimumuna endirdi.***

Xəstəliyin tüğyan etməsi səbəbindən neftin bundan daha çox ucuzlaşması 2003-cü ilin fevral-mart aylarında müşahidə olunan kəskin tənəffüs yollarının ağır kəskin sindromunun (SARS - "bənövşəyi ölüm", atipik pnevmoniya) yayılması zamanı qeydə alınmışdır. Həmin dövrdə neft 31% ucuzlaşmışdı.

Qeyd edək ki, hazırda "Brent" markalı neftin bir bareli 54,05 dollara ticarət olunur.

**Xatırladaq ki, xəstəlik 2019-cu il dekabrın 31-də Çinin Uxan şəhərində baş qaldırmışdı. Son məlumatlara görə, xəstəlikdən ölənlərin sayı 1115-ə, sağalanların sayı isə 4843-ə çatıb.**

**Nicat Novruzoğlu**

Ədalət.- 2020.- 13 fevral. S. 4.